Misir Mərdanov qonağı Təhsil Nazirliyində görməkdən məmnun olduğunu bildirib. Yaxın günlərdə rəhbərlik etdiyi nümayəndə heyətinin İsveçrə Konfederasiyasına gözlənilən səfəri barədə söhbət açan nazir ölkələrimiz arasında inkişaf edən əlaqələrdə təhsil sahəsinin mühüm yer tutduğunu nəzərə çatdırıb.

Misir Mərdanov İsveçrədə təhsilin bütün pillələri üzrə müasir yeniliklərin uğurla tətbiq olunduğunu vurğulayaraq bu təcrübə ilə tanışlığın əhəmiyyətli olacağına əminliyini ifadə edib. Ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində 40 nəfər azərbaycanlı gəncin İsveçrə universitetlərinə göndərildiyini söyləyən təhsil naziri onların sayının artırılmasının mümkünlüyünü bildirib.

İsveçrə Konfederasiyasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri xanım Sabine Ulmann Şaban səmimi qəbul üçün təhsil naziri Misir Mərdanova təşəkkürünü bildirib. Ölkəsinin Azərbaycanla bütün istiqamətlərdə, həmçinin təhsil sahəsində əməkdaşlıqda maraqlı olduğunu nəzərə çatdıran qonaq bu baxımdan təhsil nazirinin rəhbərlik etdiyi nümayəndə heyətinin İsveçrə Konfederasiyasına gözlənilən səfərinin əhəmiyyətinə toxunub.

İsveçrədə əcnəbi tələbələr üçün yeni təqaüd proqramının həyata keçirildiyini bildirən xanım Sabine Ulmann Şaban azərbaycanlı tələbələrin də bu proqramdan istifadə imkanlarının olduğunu söyləyib. Ali məktəb tələbələrinin bu proqram haqqında məlumatlandırılması üçün universitetlərdə görüşlər keçirmək istədiyini qeyd edən səfir, həmçinin İsveçrənin təhsilin bütün pillələri üzrə Azərbaycanla əməkdaşlığın genişləndirilməsinə hazır olduğunu bildirib.

Misir Mərdanov Azərbaycanda Beynəlxalq Bakalavriat Proqramı üzrə tədrisin aparılması işinə isveçrəli mütəxəssislərin rəhbərlik etdiyini nəzərə çatdırıb, bu layihənin uğurla həyata keçiriləcəyinə inandığını deyib. Ölkələrimizin təhsil müəssisələri arasında birbaşa əlaqələrin yaradılmasının zəruriliyini bildirən nazir elmi-tədqiqat sahəsində də birgə layihələrin həyata keçirilməsinin mümkünlüyünü nəzərə çatdırıb.

Daha sonra görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.